ADA LAW SOCIETY

PARLAMENTAR DEBAT

QAYDALAR VƏ TƏLİMATLAR

(İŞTİRAKÇILAR ÜÇÜN)

2026

Table of Contents

I. Ümumi hissə *2*

1. Anlayışlar 2
2. Müsabiqənin məqsədi və formatı 2
3. Müsabiqədə iştirak hüququ 3

II. Təşkilati qaydalar *3*

4. Qanun layihələrinin hazırlanması və göndərilməsi 3
5. Fakt vərəqi və araşdırma qaydaları 5

III. Təlimlər və koordinatorlar *5*

6. Təlimlərin təşkili və keçirilməsi 5
7. Koordinatorların fəaliyyəti və komandalarla əlaqə 6

IV. Debatın şifahi mərhələsi *6*

8. Debat raundunun təşkili 6
9. İlkin raundların təşkili (Preliminary rounds) 6
10. Dörddəbir final raundunun təşkili (Quarter final) 7
11. Yarımfinal raundunun təşkili (Semi-final) 7
12. Final raundunun təşkili (Final) 8
13. Rollar, məsuliyyətlər və vaxt bölgüsü 8
14. Məlumat müdaxiləsi (Point of Information- POI) 9
15. Aydınlaşdırma müdaxiləsi (Point of Clarification-POC) 10
16. Qayda pozuntusu iradı (Point of Order) 11
17. Hakimlər və digər iştirakçılarla münasibət 11

V. Qiymətləndirmə kriteriyaları *11*

18. Komandanın ümumi balı 11
19. Qanun layihələrinin qiymətləndirilməsi 12
20. Şifahi raundların qiymətləndirilməsi 13

VI. Etika və daxili qaydalar *13*

21. Müsabiqə zamanı və müsabiqədən sonrakı etik davranış qaydaları 13
22. Cərimə və sanksiyalar 14

Əlavə 1 ..... *15*

Əlavə 2 ..... *16*

I. Ümumi hissə

1. Anlayışlar

1.1. Mövzu (motion)— müsabiqə boyunca hər raundda debat ediləcək məsələ və ya təklif (məs. "Ödənişli təhsil qadağan edilməlidir").

1.2. Əsas mövqe— komandanın mövzuya verdiyi cavab, əsas arqumentlərin strukturudur. Hər bir komanda motion-a uyğun öz əsas mövqeyini qurur.

1.3. Qanun layihəsi— komanda tərəfindən müzakirə və qəbul olunmaq üçün təqdim edilən normativ akt layihəsi.

1.4. Təkzib— Qarşı tərəfin arqumentinə cavab verib onu zəiflətmək və ya təkzib etmək üçün arqument.

1.5. Fakt vərəqi— Bu Qaydaların 5-ci maddəsinə əsasən qanun layihəsi və ya motion üçün təqdim olunan faktlara əsaslanan sənəd.

1.6. Squirrel motion— Hökumət komandasının motion-u çox gözlənilməz və ya dar mənа ilə təfsir etməsi.

1.7. Məlumat müdaxiləsi (Point of Information)— Bu qaydaların 14-ci maddəsinə əsasən qarşı tərəfin nitqi zamanı edilən məlumat xarakterli müdaxilə.

1.8. Aydınlaşdırma müdaxiləsi (Point of Clarification)- Bu qaydaların 15-ci maddəsinə əsasən Baş Nazirin ilk çıxışı müddətində qanun layihəsinə edilən izahat zamanı yaranmış boşluqları dəqiqləşdirmək məqsədilə Müxalifət komandası tərəfindən ünvanlanan sual xarakterli müdaxilə.

1.9. Qayda pozuntusu iradı (Point of Order)— Bu qaydaların 16-cü maddəsinə əsasən qarşı tərəfin nitqi zamanı qayda pozuntusu aşkar edildikdə edilən müdaxilə.

1.10. Debat raundu—İki komandanın bir debat sessiyasında qarşıdurması.

1.11. Hökumət komandası— Motiona müdafiə edən komanda.

1.12. Müxalifət komandası— Motionun əksini müdafiə edən komanda.

2. Müsabiqənin məqsədi və formatı

2.1. Parlamentar debat müsabiqəsinin əsas məqsədi iştirakçıların tənqidi düşünmə, hüquqi və siyasi təhlil, ictimai çıxış və arqumentasiya bacarıqlarının inkişaf etdirilməsindən, habelə onların qanunvericilik prosesi barədə biliklərinin dərinləşdirilməsindən ibarətdir.

2.2. Parlamentar debat müsabiqəsi iştirakçıların sosial və hüquqi məsələlərə dair mövqelərini

əsaslandırılmış şəkildə ifadə etmək, mövcud və ya hipotetik qanun layihələrini müxtəlif mövqelərdən təhlil etmək və qanunvericilik müzakirələrini simulyasiya edən şəraitdə debat aparmaq bacarıqlarının formalaşdırılmasına xidmət edir.

2.3. Müsabiqə parlamentar debat formatında keçirilir. Debat raundlarının hər birində hökumət və müxalifət mövqelərini təmsil edən iki komanda iştirak edir.

3. Müsabiqədə iştirak hüququ

3.1. Müsabiqədə iştirak iki nəfərdən ibarət komandalar şəklində həyata keçirilir.

3.2. Komanda tərkibi ali təhsil müəssisəsindən asılı olmayaraq, istənilən universitetdə təhsil alan tələbələrdən ibarət ola bilər.

3.3. Komandada üzvlərdən biri hüquq fakültəsində təhsil alan tələbə olmalıdır.

3.4. Müsabiqədə II, III, IV və V kurs bakalavr, habelə magistr səviyyəsində təhsil alan tələbələr iştirak edə bilər.

II. Təşkilati qaydalar

4. Qanun layihələrinin hazırlanması və göndərilməsi

4.1. Komandalar hökumət adından müvafiq debat mövzusu üzrə qanun layihəsi hazırlamalı və həmin layihəni müəyyən edilmiş **son təqdimetmə müddəti başa çatanadək təqdim etməlidirlər**. Turnirin bütün mərhələlərində eyni debat mövzusu üzrə hazırlanmış vahid qanun layihəsi əsas götürülür və tətbiq edilir.

4.2. Növbəti raunda keçmiş komandalar qanun layihəsinə əlavə və dəyişikliklər etmək hüququna malikdirlər. Bu halda qanun layihəsinin yenilənmiş versiyası müəyyən edilmiş son tarixədək təşkilati komitəyə yenidən təqdim edilməlidir.

4.3. Komanda müəyyən edilmiş müddət ərzində yenilənmiş qanun layihəsini təqdim etmədikdə, qanun layihəsinə dəyişiklik edilməmiş hesab olunur və qanun layihəsinin əvvəlki redaksiyası növbəti raund üçün əsas götürülür.

4.4. Qanun layihəsi aşağıdakı struktur tələblərinə uyğun tərtib edilməlidir:

4.4.1. Qanun layihəsinin başlığında, səhifənin yuxarı hissəsində və ortada layihənin predmetini və məqsədini əks etdirən ad göstərilməlidir;[1]

[1] Məsələn, "*Hərbi xidmətin məcburi edilməsi haqqında qanun layihəsi*".

4.4.2. Qanun layihəsinin başlığından sonra, maddələrin mətnindən əvvəl aşağıdakı ifadə qeyd edilməlidir— "*Bu Parlament tərəfindən bu Qanunla müəyyən edilir ki, ...* ";

4.4.3. Qanun layihəsi ilə tənzimlənməsi nəzərdə tutulan məsələlər ardıcıllıqla və ayrı-ayrı maddələr şəklində müəyyən edilməlidir.

4.4.4. *Birinci* maddədə qanun layihəsi ilə tətbiq edilməsi nəzərdə tutulan yeni siyasətin mahiyyəti qısa və aydın şəkildə ifadə edilməlidir. Qanun layihəsi yalnız bir istiqamətli siyasəti əhatə etməli və həmin siyasətin məzmunu bu maddədə öz əksini tapmalıdır. Eyni problemin həllinə yönəlmiş bir-birindən fərqli bir neçə siyasətin paralel şəkildə nəzərdə tutulmasına yola verilmir.[2]

4.4.5. *İkinci* maddədə birinci maddədə istifadə edilmiş yeni terminlərin, çoxmənalı söz və ifadələrin nəzərdə tutulan mənası, habelə izahına ehtiyac duyulan digər anlayışların məzmunu açıqlanmalıdır.

4.4.6. *Üçüncü* maddədə qanunun icrasına məsul olan orqan müəyyən edilməlidir.[3] Həmin orqanın seçilməsinin əsaslandırılması komandanın mülahizəsinə buraxılır. Bu maddədə, həmçinin qanunun icra mexanizmi də müəyyən olunmalıdır. İcra mexanizmi dedikdə, qanunun qəbulundan sonra onun praktiki tətbiqini təmin edən üsullar, vasitələr və tədbirlərin məcmusu nəzərdə tutulur. Bu çərçivədə qanunun icrasına nəzarət qaydası, nəzərdə tutulduğu hallarda cərimələr və digər sanksiyalar, habelə qanunvericiliyin pozulmasının hüquqi nəticələri göstərilməlidir.

4.4.7. *Dördüncü* maddədə qanunun qüvvəyə minmə tarixi, habelə nəzərdə tutulduğu təqdirdə qüvvədən düşmə tarixi müəyyən edilməlidir.

4.4.8. *Beşinci* maddədə qanunun müddəaları ilə ziddiyyət təşkil edən digər normativ hüquqi aktların müvafiq müddəalarının qüvvədən düşmüş hesab edilməsi nəzərdə tutulmalıdır.

4.4.9. Qanun layihəsinin maddələri daxilində zərurət olduqda alt bölmələrdən (bəndlərdən) istifadə edilə bilər (məs. 2.1./3.2 və s.).

4.4.10. Qanun layihəsinin sonunda onu qəbul edən komandanln adı mütləq qeyd edilməlidir.

---

[2] Məsələn, əgər mövzu məktəblərdə şagirdlərin sağlamlığına nəzarətin artırılmasıdırsa və qanun layihəsi həftəlik bədən tərbiyəsi dərslərinin saatlarının artırılmasını nəzərdə tutursa, o zaman qanun layihəsi eyni zamanda məktəblərdə standart qida rasionlarının tətbiq edilməsini təklif edə bilməz.

[3] Bu maddə Azərbaycan qanunvericilik sisteminə modifikasiya edilmişdir. Belə ki, Amerika Konqres debatlarında Konqres verdiyi qanun layihəsinin birbaşa hansı orqan tərəfindən və hansı mexanizmlə icra olunacağını qeyd edir. Ancaq, Azərbaycan qanunvericiliyinə əsasən müvafiq icra hakimiyyəti orqanı Prezident tərəfindən təyin edilir. Lakin qanun layihəsi siyasət məntiqinin və hüquqi planlama qabiliyyətinin artırılması məqsədilə bu maddənin daxil edilməsi tələbi vardır.

4.5. Qanun layihəsi aşağıdakı texniki tələblərə uyğun tərtib edilməlidir:

4.5.1. Qanun layihəsi Microsoft Word formatında hazırlanmalıdır.

4.5.2. Qanun layihəsinin ümumi həcmi, bu Qaydalarda müəyyən edilmiş bütün struktur və məzmun tələbləri nəzərə alınmaqla, 450-600 söz (±5%) arasında olmalıdır.

4.5.3. Bu Qaydaların 4.4.1-ci yarımbəndində nəzərdə tutulan başlıq istisna olmaqla, qanun layihəsində istifadə olunan bütün mətnlərin şrift ölçüsü 12 punktdan artıq olmamalıdır.

4.5.4. Qanun layihəsinin hazırlanmasında bütün mətnlər üçün "Times New Roman" yazı şriftindən istifadə edilməlidir.

5. Fakt vərəqi və araşdırma qaydaları

5.1. Fakt vərəqi komandaların şifahi çıxışları zamanı irəli sürdükləri arqumentləri əsaslandırmaq məqsədilə istinad etdikləri, ümumi ictimaiyyətə məlum olmayan aktual və tarixi faktları, məhkəmə qərarlarını, qanunvericilik aktlarını və digər müvafiq məlumatları, habelə həmin məlumatların mənbələrini əks etdirən sənəddir.

5.2. Fakt vərəqi hakimlərə təqdim edilməlidir.

5.3. Fakt vərəqinin qarşı komandaya təqdim edilməsi müsbət qiymətləndirilir.

5.4. Faktlar vərəqində əks etdirilən məlumatlar etibarlı hüquqi bazalara və rəsmi mənbələrə əsaslanmalıdır. Etibarlılığı təsdiqlənməmiş mənbələrə əsaslanan məlumatlar mötəbər istinad hesab edilmir.

5.5. Faktlar vərəqində, bir qayda olaraq, aşağıdakı məlumatlar əks etdirilməlidir:

5.5.1. Araşdırılan məsələ barədə qısa və ümumiləşdirilmiş məlumat;

5.5.2. Müvafiq olduqda, məsələ ilə əlaqəli statistik göstəricilər;

5.5.3. İstifadə edilmiş məlumatların əldə edildiyi mənbələrə dair dəqiq istinadlar;

5.5.4. Faktlar vərəqinin həcmi, zəruri hallar istisna olmaqla, bir səhifədən artıq olmamalıdır.

III. Təlimlər və koordinatorlar

6. Təlimlərin təşkili və keçirilməsi

6.1. Müsabiqənin şifahi raunlar mərhələsinin başlamasından öncə komandalar üçün ümumi təlim sessiyası təşkil edilir.

6.2. Təlim sessiyası çərçivəsində iştirakçılara debatın strukturu, müsabiqə qaydaları, iştirakçıların riayət etməli olduqları tələblər və komandaların qiymətləndirilməsi zamanı nəzərə alınan meyarlar barədə məlumat verilir.

7. Koordinatorların fəaliyyəti və komandalarla əlaqə

7.1. Komandalar müsabiqənin təşkili və keçirilməsi qaydaları ilə bağlı suallarını ünvanlamaq və koordinatorlarla əlaqə saxlamaq üçün Ada Hüquq Cəmiyyətinin Debat Komandasına məxsus *alsdebate.contact@gmail.com* elektron poçt ünvanından istifadə etməlidirlər.

7.2. Komandaların koordinatorlara debat mövzusu, qanun layihəsinin məzmunu, irəli sürüləcək arqumentlər və digər substantiv məsələlərlə bağlı fərdi məsləhət və ya izahat xarakterli müraciətlər ünvanlanması qadağandır.

IV. Debatın şifahi mərhələsi

8. Debat raundunun təşkili

8.1. Komandalar debat raundunun keçirilməsindən ən azı 72 saat əvvəl debatın mövzusu, habelə raundun başlanmasına 2 saat qalmış müdafiə edəcəkləri mövqe barədə məlumatlandırılırlar. Hər debat raundu iki komandadan ibarət olur: Hökumət (Government) və Müxalifət (Opposition).

8.2. Komandalar müvafiq olaraq qanun layihəsinin qəbul edilməsini və ya rədd edilməsini əsaslandıran arqumentlər irəli sürməklə hakimləri müdafiə etdikləri mövqenin əsaslılığına inandırmağa çalışırlar.

8.3. Komandalar turnir təşkilatçıları tərəfindən müəyyən edilmiş mövzu üzrə debat aparırlar. Müəyyən edilmiş mövzu turnirin bütün mərhələləri ərzində dəyişdirilmədən saxlanılır.

9. İlkin raundların təşkili (Preliminary rounds)

9.1. İkin raundlarda komandaların rəqibləri, müdafiə edəcəkləri mövqelər və çıxış ardıcıllığı təşkilati komitə tərəfindən püşkatma yolu ilə müəyyən edilir və bu Qaydaların 8.1-ci maddəsinə əsasən iştirakçılara elan olunur.

9.2. İlkin raundların sonunda komandaların sıralaması qanun layihəsinin qiymətləndirilməsi və şifahi çıxışlar üzrə topladıqları xalların cəmi əsasında müəyyən edilir.

9.3. İlkin raundların nəticələrinə əsasən ən yüksək ümumi xal toplamış 8 komanda dörddəbir final mərhələsinə vəsiqə qazanır.

9.4. Komandaların ümumi xalları bərabər olduqda, şifahi çıxışlar üzrə daha yüksək xal toplamış komanda dörddəbir final mərhələsinə vəsiqə qazanır.

10. Dörddəbir final raundunun təşkili (Quarter final)

10.1. Dörddəbir final mərhələsində komandaların Hökumət və ya Müxalifət mövqeyində çıxış etməsi ilkin raundlarda müdafiə etdikləri mövqelər nəzərə alınmaqla müəyyən edilir.

10.2. Dörddəbir final mərhələsində qarşılaşacaq komandaların rəqibləri, müdafiə edəcəkləri mövqelər və çıxış ardıcıllığı təşkilati komitə tərəfindən müəyyən edilir və bu Qaydaların 8.1-ci maddəsinə əsasən iştirakçılara elan olunur.

10.3. Dörddəbir final mərhələsində komandaların yarımfinal mərhələsinə vəsiqə qazanması həmin mərhələdə qanun layihəsinin qiymətləndirilməsi və şifahi çıxışlar üzrə topladıqları xalların cəmi əsasında müəyyən edilir.

10.4. Qarşılaşma üzrə ən yüksək ümumi xalı toplayan komanda yarımfinal mərhələsinə vəsiqə qazanır.

11. Yarımfinal raundunun təşkili (Semi-final)

11.1. Dörddəbir final mərhələsində öz qarşılaşmalarında qalib gəlmiş dörd komanda yarımfinal mərhələsində iştirak etmək hüququ əldə edir.

11.2. Yarımfinal mərhələsində qarşılaşacaq komandaların rəqibləri, müdafiə edəcəkləri mövqelər və çıxış ardıcıllığı təşkilati komitə tərəfindən müəyyən edilir və bu Qaydaların 8.1-ci maddəsinə əsasən iştirakçılara elan olunur.

11.3. Yarımfinal mərhələsində qalib komandanın müəyyən edilməsi həmin mərhələdə qanun layihəsinin qiymətləndirilməsi yarımfinal raundundakı şifahi çıxışlar üzrə topladıqları xalların cəmi əsasında müəyyən edilir.

11.4. Yarımfinal qarşılaşmasında ən yüksək ümumi xal toplayan komanda final mərhələsinə vəsiqə qazanır.

11.5. Yarımfinal qarşılaşmasında qalib olan komandalar arasında üçüncülük uğrunda mübarizə aparılmır.

12. Final raundunun təşkili (Final)

12.1. Final mərhələsində mərhələsində qarşılaşacaq komandaların rəqibləri, müdafiə edəcəkləri mövqelər və çıxış ardıcıllığı təşkilati komitə tərəfindən müəyyən edilir və bu Qaydaların 8.1-ci maddəsinə əsasən iştirakçılara elan olunur

12.2. Final mərhələsində qanun layihəsinin qiymətləndirilməsi və şifahi çıxış xallarının cəminə əsasən ən yüksək xal toplamış komanda debatın qalibi elan edilir.

13. Rollar, məsuliyyətlər və vaxt bölgüsü

13.1. Komanda üzvləri şifahi çıxışlarını bu Qaydaların 13.8-cü maddəsində nəzərdə tutulmuş cədvəldə müəyyən edilmiş vaxt çərçivəsində həyata keçirməlidirlər.

13.2. Təkzib və əks-təkzib çıxışları zamanı yalnız qarşı komandanın əvvəlki çıxışında irəli sürdüyü arqumentlərə cavab verilə bilər, yeni arqumentlərin irəli sürülməsinə yol verilmir.

13.3. Komandalar çıxışları zamanı faktlar vərəqində əks olunmuş məlumatlara istinad etdikdə, müvafiq faktlar vərəqini hakimlərə təqdim etməlidirlər.

13.4. Çıxışçı "STOP!" siqnalını aldıqdan sonra çıxışını dayandırmalı və ya çıxışını tamamlamaq üçün 30 saniyəlik əlavə vaxtdan istifadə etmək istədiyini bildirməlidir. Əlavə vaxtdan istifadə edilməsi və ya edilməməsi komandanın qiymətləndirilməsi zamanı nəzərə alınmır.

13.5. Çıxışçının çıxışını tamamlamaq üçün istifadə edə biləcəyi əlavə vaxt 30 saniyə ilə məhdudlaşır. Müddətin aşılması isə bu Qaydaların 0-cü bəndinə uyğun olaraq müvafiq sanksiyaya səbəb olur.

13.6. Debat başlamazdan əvvəl və ya debatın gedişində komandalara əlavə hazırlıq vaxtı verilmir. Əvvəlki çıxışçının çıxışı başa çatdıqdan sonra növbəti çıxışçı hakimin göstərişi əsasında dərhal çıxışa başlamalıdır.

13.7. Bu Qaydaların 8.1-ci maddəsinə uyğun olaraq komandaların müdafiə edəcəkləri mövqelər barədə məlumatlandırılmasından sonra iştirakçıların debat çərçivəsində çıxış edəcəkləri rolları aşağıdakı qaydada müəyyən edilir:

- Hökumət komandası:
    1. Baş Nazir (Prime Minister- PM)
    2. Hökumət Üzvü (Member of Government- MG);

- Müxalifət komandasında:

    1. Müxalifət Lideri (Leader of Opposition-LO)
    2. Müxalifət Üzvü (Member of Opposition- MO).

13.8. Komanda üzvlərinin çıxış ardıcıllığı aşağıdakı qaydada müəyyən edilir:

1. <u>Baş Nazir</u> **(Prime Minister Constructive-PMC)**	7 dəqiqə	Bütün auditoriyanı qanun layihəsinin bölmələri ilə tanış edir, ilkin arqumentləri irəli sürür. Qanun layihəsi hakimlərə və qarşı komandaya yazılı formatda bu çıxışda təqdim edilməlidir.
2. <u>Müxalifət Lideri</u> **(Leader of Opposition Constructive- LOC)**	8 dəqiqə	Qanun layihəsindəki boşluqları təqdim edir, mövqeyinə dəstəkləyici arqumentlər gətirir. Baş Nazirin çıxışına əks-arqumentlər irəli sürür.
3. <u>Hökumət Üzvü</u> **(Member of Government Constructive- MGC)**	8 dəqiqə	Yeni arqumentləri tamamlayır, Müxalifət Liderinin arqumentlərinə cavablar verir.
4. <u>Müxalifət Üzvü</u> **(Member of Opposition Constructive- MOC)**	8 dəqiqə	Hökumətin arqumentlərinə cavab verir, qanun layihəsinin bütün zəifliklərini nəzərə çatdırır, yeni arqumentləri tamamlayır.
5. <u>Müxalifət Liderinin təkzibi</u> **(Leader of Opposition Rebuttal- LOR)**	4 dəqiqə	Arqumentləri Müxalifət komandasının perspektivindən ümumiləşdirir, qalmış bütün arqumentlərə cavab verir.
6. <u>Baş Nazirin təkzibi</u> **(Prime Minister Rebuttal- PMR)**	5 dəqiqə	Arqumentləri Hökumət komandasının perspektivindən ümumiləşdirir, qalmış bütün arqumentlərə cavab verir.

14. Məlumat müdaxiləsi (Point of Information- POI)

14.1. Məlumat müdaxiləsi komanda üzvünün çıxışçının çıxışı zamanı əlini qaldırmaqla müdaxilə etmək istəyini bildirməsi və çıxışçının səsləndirdiyi arqumentlə bağlı qısa məlumat və ya fikir təqdim etməsidir.

14.2. Məlumat müdaxilələri ya qısa etiraz, ya da qısa sual formatında olmalıdır və birbaşa

çıxışçının arqumentini zəiflətməyə yönəlməlidir.[4] Uzun danışıq, yeni arqument, şəxsi və ya hakimləri hədəfləyən müdaxilələr yolverilməzdir.

14.3. Məlumat müdaxiləsi çıxışçının çıxışı zamanı qarşı komandanın hər hansı üzvü tərəfindən qaldırıla bilər.

14.4. Çıxışçı məlumat müdaxiləsinə cavab vermək və ya onu cavabsız saxlamaq hüququna malikdir. Məlumat müdaxiləsinə verilən qısa və əsaslandırılmış cavab çıxışçının qiymətləndirilməsi zamanı müsbət nəzərə alına bilər.

14.5. Çıxışın ilk bir dəqiqəsində və onun bitməsinə son bir dəqiqə qalmış məlumat müdaxiləsi edilməsinə icazə verilmir.

14.6. Məlumat müdaxiləsi zamanı vaxt axımı dayanmır.

14.7. Komandalar tərəfindən məlumat müdaxilələrinin verilməsi qiymətləndirmə zamanı müsbət nəzərə alına bilər.

15. Aydınlaşdırma müdaxiləsi (Point of Clarification-POC)

15.1. Aydınlaşdırılma müdaxiləsi Baş Nazirin ilk çıxışı müddətində qanun layihəsinə edilən izahat zamanı yaranmış boşluqları dəqiqləşdirmək məqsədilə Müxalifət komandası tərəfindən ünvanlanan sualdır.

15.2. Aydınlaşdırma müdaxiləsi qanun layihəsində verilmiş izahatların hamıya tam aydın olması məqsədilə verilir və yeni arqumentasiya yaratmaq məqsədi daşımır.

15.3. Aydınlaşdırma müdaxiləsi üçün tərəf əlini qaldırmalı, aydınlaşdırma müdaxiləsi etmək istədiyini bildirməli və fikrini ifadə etməlidir.

15.4. Əgər hökumət komandası "squirrel motion" strategiyasından[5] istifadə etmiş və tight case yaranmışsa,[4] bu aydınlaşdırma müdaxiləsində bildirilməlidir. Bu zaman hakimlər tərəfindən izahatın dəyərləndirilməsi aparılır. Razılıq halında, izahat raundda nəzərə alınmır və motion verilmiş standart halla saxlanılır.

15.5. Baş Nazir aydınlaşdırma müdaxiləsi zamanı verilmiş suala cavab verməlidir.

15.6. Aydınlaşdırma müdaxiləsi zamanı vaxt axımı dayanır.

---

[4] Nümunə kimi göstərilə bilər: "Biz qeyd etdik ki, bu tədbir hüquqi baxımdan tətbiq edilə bilməz. Sizin cavabınız bu arqumenti nəzərə almır."; "Bu təklifin büdcəyə təsirini necə əsaslandırırsınız?"; "Sizin dediyinizə əsasən, bütün hallarda dövlət müdaxilə etməlidir? Bu, azad bazarı məhv etmir?".

[5] "Squirrel motion" debat zamanı icazə verilməyən ədalətsiz strategiyadır. Bu zaman hökumət komandası verilmiş motion-u çox dar interpretasiya edir və müxalifət komandasının arqumentasiya üçün praktiki olaraq heç bir imkanı qalmır. Məsələn, ölüm cəzasının ləğv edilməsi haqqında motion-u hökumət komandası ancaq müəyyən ölkədə edilmiş siyasi səbəblərlə verilən ölüm cəzalarına aid olaraq interpretasiya edə bilməz. Hökumət komandası izahatlar zamanı balansı qorumalıdır.

16. Qayda pozuntusu iradı (Point of Order)

16.1. Qayda pozuntusu qarşı komanda tərəfindən debat qaydalarının pozulduğu hesab edilən hallarla bağlı iradın bildirilməsi üçün əl qaldırılmaqla iradın əsaslandırılması və pozuntunun mövcudluğu barədə qərarın hakimlər tərəfindən qəbul edilməsi prosedurudur. Qayda pozuntusunun olub-olmaması barədə qərar hakimlər tərəfindən qəbul edilir.[6]

16.2. Qayda pozuntusu iradı çıxışçının çıxış müddətinin istənilən mərhələsində qarşı komanda tərəfindən qaldırıla bilər.

16.3. İrad zamanı vaxt axımı dayanır.

16.4. Qayda pozuntusu iradına çıxışçının cavab vermə hüququ yoxdur. Son qərar hakimlərə aiddir.

17. Hakimlər və digər iştirakçılarla münasibət

17.1. Şifahi çıxışların hər raundunda komanda üzvləri 3 hakimdən ibarət tərkib tərəfindən qiymətləndirilir.

17.2. Şifahi çıxışlar zamanı hakimlər tərəfindən komandalara sual ünvanlanmır.

17.3. Şifahi çıxışlar zamanı komanda üzvlərinin hakimlərə sual və ya təklif xarakterli müraciətlər ünvanlamasına yol verilmir.

17.4. Şifahi çıxışlar zamanı qarşı komanda tərəfindən çıxışçıya müdaxilə yalnız "Məlumat müdaxiləsi", "Aydınlaşdırma müdaxiləsi" və "Qayda pozuntu iradı" olduqda mümkündür:

V. Qiymətləndirmə kriteriyaları

18. Komandanın ümumi balı

18.1. Komandanın ümumi balı raund üzrə qanun layihəsi və şifahi çıxışlardan əldə edilmiş balların cəmindən ibarətdir. Komandalar raund üzrə maksimum 100 bal üzərindən qiymətləndirilir.

[6] Qayda pozuntularına nümunə kimi, tamamlama çıxışında 30 saniyəni aşmaq, rebuttal mərhələsində yeni arqument irəli sürmək kimi iradlar tutula bilər.

18.2. Qanun layihəsinin qiymətləndirilməsi üzrə maksimum 25 bal, şifahi çıxışların qiymətləndirilməsi üzrə isə maksimum 75 bal müəyyən edilir.

18.3. Raundun qalibi müəyyən edilərkən, komandanın həmin raundda çıxış etdiyi mövqedən asılı olmayaraq, hökumət mövqeyi üzrə təqdim edilmiş qanun layihəsindən və şifahi çıxışlardan əldə etdiyi balların cəmi nəzərə alınır.

19. Qanun layihələrinin qiymətləndirilməsi

19.1. Qanun layihələri müvafiq şifahi raundlardan əvvəl hakimlər tərəfindən qiymətləndirilir.

19.2. Qanun layihəsi üzrə əldə edilmiş bal komandanın şifahi raund üzrə topladığı bala əlavə edilərək ümumi balı formalaşdırır.

19.3. Qanun layihəsinin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə həyata keçirilir: [7]

19.3.1. hüquqi-strateji yanaşma- maksimum 8 bal;

19.3.2. hüquqi dil və aydınlıq- maksimum 3 bal;

19.3.3. terminologiya və hüquqi izahatların düzgün istifadəsi- maksimum 3 bal;

19.3.4. icra strategiyasının, mexanizmin ağlabatanlığı və reallığı- maksimum 6 bal;

19.3.5. texniki tələblərə uyğunluq- 5 bal.

19.4. Qanun layihəsinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuş 25 balın 5 balı texniki tələblərə riayət olunmasına ayrılır. Texniki tələblərin hər bir pozuntusuna görə qanun layihəsinin yekun balından 1 bal çıxılır. Texniki tələblərə riayət olunması Təşkilati Komitə tərəfindən bu Qaydaların 4.4.10-ci bəndində nəzərdə tutulmuş meyarlar əsasında yoxlanılır.

19.5. Qanun layihələri 3 hakim tərəfindən Əlavə 1-də nəzərdə tutulmuş qiymətləndirmə kriteriyaları və müvafiq qiymətləndirmə vərəqi əsasında anonim şəkildə qiymətləndirilir. Hakimlərin verdiyi balların ədədi ortası komandanın müvafiq raund üzrə qanun layihəsi balını təşkil edir.

[7] Qiymətləndirmə kriteriyalarının ətraflı təsviri və hər meyar üzrə dəyərləndirmə aşağıda yerləşdirilmiş cədvəldə göstərilmişdir.

20. Şifahi raundların qiymətləndirilməsi

20.1. Şifahi çıxışlar 3 hakimdən ibarət tərkib tərəfindən Əlavə 2-də nəzərdə tutulmuş qiymətləndirmə kriteriyaları və müvafiq qiymətləndirmə vərəqi əsasında qiymətləndirilir.

20.2. Şifahi raundların qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə həyata keçirilir:[8]

20.2.1. hüquqi əsaslandırma və arqumentasiya- maksimum 30 bal;

20.2.2. faktlardan istifadə- maksimum 10 bal;

20.2.3. komanda əməkdaşlığı- maksimum 10 bal;

20.2.4. vaxt bölgüsü- maksimum 5 bal;

20.2.5. nitq bacarığı- maksimum 20 bal.

20.3. Komandanın şifahi raund üzrə yekun balı hər iki çıxışçının fərdi çıxışlarına verilmiş balların ədədi ortasl əsasında müəyyən edilir.

20.4. Fərdi çıxışlar maksimum 75 bal üzərindən qiymətləndirilir.

VI. Etika və daxili qaydalar

21. Müsabiqə zamanı və müsabiqədən sonrakı etik davranış qaydaları

21.1. İştirakçılar yarışın bütün mərhələlərində etik davranış normalarına, qarşılıqlı hörmət və peşəkar ünsiyyət prinsiplərinə riayət etməlidir.

21.2. Şifahi çıxışlar zamanı qaydalarda nəzərdə tutulan hallar istisna olmaqla, digər çıxışçıların sözünü kəsmək, təhqiredici ifadələrdən istifadə etmək və qeyri-etik davranış nümayiş etdirmək qadağandır.

21.3. Müsabiqə müddətində, habelə müsabiqə başa çatdıqdan sonra iştirakçıların və ya komanda üzvlərinin ADA Law Society Təşkilati Komitəsinin, hakimlərin və ya tədbirin işgüzar nüfuzuna xələl gətirən, hörmətsizlik təşkil edən, eləcə də sosial şəbəkələrdə turnir və ya təşkilatçılar haqqında etik çərçivədən kənar və qeyri-obyektiv fikirlər paylaşması yolverilməzdir.

21.4. Bu halları aşkar edildikdə, pozuntunun xarakteri və ağırlıq dərəcəsi nəzərə alınmaqla aşağıdakı sanksiyalar tətbiq edilir:

[8] Qiymətləndirmə kriteriyalarının ətraflı təsviri və hər meyar üzrə dəyərləndirmə aşağıda yerləşdirilmiş cədvəldə göstərilmişdir.

21.5. Müsabiqənin keçirilməsi davam etdiyi müddətdə davam edərsə:

a) *İlk və ya yüngül xarakterli pozuntuya görə:* xəbərdarlıq edilməsi və komandanın ümumi balının 5 baladək azaldılması;

b) *Təkrar və ya ağır xarakterli pozuntuya görə:* müvafiq raund üzrə texniki məğlubiyyətin qeydə alınması və ya komandanın müsabiqədən kənarlaşdırılması.

21.6. Müsabiqə başa çatdıqdan sonra aşkar edilmiş pozuntulara görə iştirakçının ADA Law Society tərəfindən gələcəkdə təşkil ediləcək müsabiqələrdə iştirakına məhdudiyyət qoyula bilər.

22. Cərimə və sanksiyalar

22.1. Debat qaydalarının pozulması hallarında bu Qaydalarla müəyyən edilmiş müvafiq cərimə və sanksiyalar tətbiq edilir.

22.2. Qanun layihəsinə dair qayda pozuntuları

Qayda pozuntusu	**Cərimə**
Qanun layihəsinin son tarixdən gec təqdim olunması	Hər 1 saatlıq gecikməyə görə qanun layihəsi üzrə toplanmış baldan **1 bal** azalma
Qanun layihəsində birdən artıq siyasət təklifinin yer alması	Qanun layihəsi üzrə toplanmış baldan **5 bal** azalma[9]

22.3. Şifahi raund zamanı struktur qayda pozuntuları[10]

Qayda pozuntusu	**Cərimə**
Təkzib/Əks-təkzib çıxışları zamanı yeni arqumentin irəli sürülməsi	Komandanın müvafiq raund üzrə yekun şifahi çıxış balından **2 bal** azalma
Müəyyən edilmiş çıxış müddətini 30 saniyədən artıq aşılması	Komandanın müvafiq raund üzrə yekun şifahi balından **2 bal** azalma.
Qayda Pozuntusu İradının hakimlər tərəfindən qəbul edilməsi	Hakimlərin ortaq mülahizəsinə əsasən komandanın ümumi balından **2-10 bal azalma** və ya **diskvalifikasiya**

[9] Bu cərimə hər bir hakim tərəfindən tətbiq edilə bilər.
[10] Bu cərimələr hakimlərin müştərək razılığı ilə tətbiq olunur və komandanın həmin raund üzrə yekun şifahi çıxış balından çıxılır.

Əlavə 1

QANUN LAYİHƏSİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ KRİTERİYALARI

Hakim 20 bal üzərindən qiymətləndirmə aparacaq. 5 bal texniki-struktur tələblərinin pozulmasına görə ayrıca nəzərdə tutulub. Hakim öz qiymətləndirməsində buna görə bal kəsməməlidir. Təşkilatçılıq tərəfindən bu əvvəlcədən tənzimlənir.

Kriteriya	***Təsviri və İzah***	***Bal (20)***
Hüquqi-strateji yanaşma	Komanda qanun layihəsində konkret hüquqi və ictimai ehtiyacı müəyyən etməlidir. Hakim aşağıdakı sualları nəzərə almalıdır: - Problem düzgün başa düşülmüş və həll yolu aydındırmı? - Bu problem təklif edilən hüquqi mexanizmlə həll oluna bilərmi? - Təklif edilən qanun layihəsi real həyatda tətbiq oluna bilərmi? - Sosial və ya hüquqi zərurətə əsaslanırmı?	_____ / (maksimum: 8)
Hüquqi dil və aydınlıq	Layihədə istifadə olunan dil hüquqi baxımdan dəqiq, emosional ifadələrsiz və anlaşıqlı olmalıdır: - Maddələr konkret və başa düşüləndirmi? - Hüquqi terminlər yerində istifadə olunubmu?	_____ / (maksimum: 3)
Terminologiya və hüquqi izahatların düzgün istifadəsi	Xüsusi anlayışlar və çoxmənalı terminlər izah olunmalıdır: - 2-ci maddədə əsas terminlər açıqlanıbmı? - Hüquqi və sosial anlayışlar kontekstə uyğun və məqsədli izah edilibmi?	_____ / (maksimum: 3)
İcra və sanksiya strategiyası	Layihənin 3-cü maddəsində tətbiq və icra mexanizmləri açıqlanmalıdır: - Qanunu icra edəcək orqan aydın göstərilibmi? - Real və praktik mexanizmlər (monitorinq, hesabatlılıq və s.) mövcuddurmu? - Sanksiyalar hüquqi baxımdan məntiqlidir?	_____ / (maksimum: 6)

Əlavə 2

ŞİFAHİ RAUND ÜZRƏ QİYMƏTLƏNDİRMƏ KRİTERİYALARI

Hökumət		Kriteriya, ballar Təsvir və İzah	Müxalifət	
Baş Nazir (PM)	**Hökumət Üzvü (MG)**		**Müxalifət Lideri (LO)**	**Müxalifət Üzvü (MO)**
		<u>Hüquqi əsaslandırma və arqumentasiya (30)</u> Çıxışçı arqumentlərini hüquqi prinsiplərə, qanunlara və presedentlərə əsaslanaraq təqdim edibmi? Arqumentlər məntiqi şəkildə qurulubmu? (feasibility)		
		<u>Faktlardan istifadə (10)</u> Faktlar düzgün və məqsədəuyğun şəkildə istifadə olunubmu? Arqumentləri gücləndirmək üçün real həyatdan nümunələr göstərilibmi? Fakt vərəqinin təqdim edilməsi müsbət qiymətləndirilir.		
		<u>Komanda əməkdaşlığı (10)</u> *(Hakimlərin bu meyar üzrə verdiyi bal hər iki çıxışçının fərdi balına əlavə edilir və komanda balının hesablanmasında iki dəfə nəzərə alınır)* Komanda üzvlərinin çıxışları bir-birini tamamlayırdı. Çıxışlar təkrar yox, ardıcıl idimi?		
		<u>Vaxt bölgüsü (5)</u> Komanda ona verilmiş vaxtdan yetəri qədər istifadə etdi mi? "Grace period" həddi aşıldımı?		
_____	_____	**<u>Nitq bacarığı (20)</u>** 1. Çıxış strukturlu idi mi? Başlanğıc, arqumentlərin sırası və sonluq yaxşı başa düşülürdümü? Çıxışçının nitqini izləmək mümkün idi mi? 2. İnandırıcılıq. Çıxışçı emosiyalardan yerində və qədərində istifadə edirdimi? 3. Etik davranış. Qarşı komandanın çıxışı böldüyü hissələrdə çıxışçının reaksiyası necə idi? Auditoriyaya müraciət edərkən nə dərəcədə hörmətlə yanaşırdı?	_____	_____